# İşıqlı 10 il

"Azərişıq" ASC-nin yaradılmasından 10 il keçir. Qurum yarandığı gündən paytaxtda və regionlarda, eləcə də torpaqlarımız işğaldan azad olunandan dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda çoxsaylı uğurlu layihələrə imza atır ki, bu da Azərbaycanın dayanıqlı iqtisadi inkişafına və əhalinin sosial rifahına töhfə verir.



İşıq həyatdır, bu gün elektrik enerjisiz həyatı təsəvvür etmək çətindir. Elektrikin verilişi hər hansı bir səbəbdən müəyyən müddətdə dayanarsa, nələrin baş verəcəyini təsəvvür etmək çətin deyil. Təbii ki, "Azərişıq" ASC-nin rəhbərliyi və əməkdaşları bu işin nə qədər məsuliyyətli olduğunu daha yaxşı başa düşürlər. Yəqin elə bu səbəbdən son illər xeyli işlər görüblər, tədbirlər, layihələr həyata keçiriblər. Faktlara nəzər salaq: 10 il ərzində ölkə üzrə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri çərçivəsində 20 min kilometr uzunluğunda müxtəlif gərginlikli müasir elektrik veriliş xətləri çəkilib, 30 min kilometrə yaxın mövcud elektrik veriliş xətləri yenisi ilə əvəz olunub. 110/35 kV-luq 40, 35 kV-luq 227 yarımstansiya inşa edilib, 7 min yeni transformator məntəqəsi quraşdırılıb. Rəqəmsal İdarəetmə Mərkəzləri və SCADA sistemlərinin tətbiqi ilə şəbəkələrin dayanıqlığı və etibarlığı xeyli artıb. Hazırda ölkədə bu sistem vasitəsi ilə idarə olunan 34 yarımstansiya mövcuddur.

Həyata keçirilən ən uğurlu layihələrdən biri ekoloji cəhətdən faydalı olan elektromobillərdən istifadənin təşviq edilməsidir. Bu sahədə son bir il ərzində, xüsusən ölkəmizdə keçirilən COP-29 ərəfəsində ciddi addımlar atılıb. Paytaxtda və regionlarda, eləcə də işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda enerjidoldurma məntəqələri (EDM) quraşdırılaraq dayanıqlı elektrik enerjisi ilə təmin edilib. Bakı və ətraf ərazilərdə 22, işğaldan azad olunmuş ərazilərdə 7, digər regionlarda 15 EDM quraşdırılıb. 60 kVt-lıq EDM məntəqəsinin Qusar şəhərində - "Şahdağ" İstirahət Kompleksi yolunda quraşdırılması da artıq yekunlaşıb, proqram təminatına inteqrasiyası həyata keçirilir.

"Azərişıq" ötən 5 il ərzində Qarabağ və Şərqi Zəngəzurda da yenidənqurma işləri həyata keçirib və bu proses davam edir. Məhv edilmiş elektrik təsərrüfatı yenilənir, müasir dayaqlar basdırılır və elektrik xətləri çəkilir, yeni güc mərkəzləri yaradılır. Ötən illər ərzində Şuşada Rəqəmsal İdarəetmə Mərkəzi və Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi də daxil olmaqla 35/0,4 kV-luq 7, Daşaltı kəndində 35/10 kV-luq 1 yarımstansiya, "Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, Cəbrayılda Rəqəmsal İdarəetmə Mərkəzi tikilərək istismara verilib.

Bu günlər "Azərişıq"ASC-nin 10 illik yubileyi ilə əlaqədar media-tur çərçivəsində Zəngilana təşkil olunan səfərdə jurnalistlər Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi ilə tanış olublar. Media nümayəndələrinə bildirilib ki, müasir texnologiya və avadanlıqlarla təchiz olunan mərkəzdə hər birinin gücü 2500 kV olan 2 güc transformatoru, qapalı paylayıcı qurğular, idarəetmə, texniki və köməkçi otaqlar yerləşir. Mərkəzin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq "Zəngilan" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib.

Zəngilanda keçirilən Mətbuat konfransında "Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə bildirib ki, qarşıya qoyulan əsas hədəflərdən biri Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunandan dərhal sonra elektrik şəbəkəsinin yenilənməsi idi: "Cəmi 1 ayda Şuşa şəhəri elektrik enerjisi ilə təmin olundu. Həmçinin digər regionlarda reallaşan 100 kənd layihəsi əsasında 2023-cü ildə 140-dək, 2024-cü ildə 120-dən çox kənd və qəsəbələrdə elektrik təsərrüfatı yenilənib. 2025-ci ildə də bu layihə uğurla davam edir".

Xatırladaq ki, 2024-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə böyük güc mərkəzlərindən ikisinin rəsmi açılışı olmuşdur. Sentyabrın 2-də dövlət başçısı Kəlbəcərdə 110/35 kV-luq "İstisu" yarımstansiyasını işə salmış, oktyabrın 3-də Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir. Ağdam Elektrik Şəbəkəsi və Rəqəmsal İdarəetmə Mərkəzi də istismara hazırdır. Hər 3 güc mərkəzi müasir tələblərə cavab verən SCADA sistemi ilə təchiz edilib.

"Azərişıq" işıqlı Azərbaycan naminə gənc mütəxəssislərin hazırlanıb işlə təmin olunmasında da bir çox uğurlu layihələr həyata keçirib. Tədris və İnnovasiyalar Mərkəzinin 2015-ci ildən başlayaraq 9 regional filialı təsis edilib. Bu gün yüksək bilik və bacarığa malik peşəkar kadrların hazırlanması bilavasitə həmin filiallarda gerçəkləşdirilir. Tədris və İnnovasiyalar Mərkəzinin nəzdində "Ağıllı Şəbəkələr", "Mühəndis Pedaqogikası", "Yaşıl Enerji", "Texnoloji İnnovasiyalar" kafedraları və "Təlim-Təcrübə Laboratoriyası" təsis edilib. "Texnoloji İnnovasiyalar" kafedrası nəzdində "Beyin Mərkəzi - Analitik Təkmilləşdirmə Qrupu" fəaliyyət göstərir. Həmin müəssisələrdə müxtəlif istiqamətlər üzrə ixtisasartırma və təkmilləşmə kursları təşkil olunur. Bu addımlar Azərbaycanın hər bir regionunun dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmasına xidmət edir. Hər zaman "Azərişıq" tərəfindən ən ucqar dağ kəndlərindən tutmuş, sərhədboyu ərazilərə qədər ərazilərin elektrik təsərrüfatı yenilənir, əhaliyə işıqlı həyat bəxş etmək üçün 24 saat fasiləsiz xidmət göstərilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.-12 fevral (№ 31).- S. 12.